# Elçin Hüseynbəylinin "Oyun"u Tatarıstanda



Tatarıstanın paytaxtı Kazanda Azərbaycanın tanınmış yazıçısı, dramaturq, publisist, Azərbaycanın Əməkdar incəsənət xadimi Elçin Hüseynbəylinin hekayələr kitabı nəşr edilib. Kitabın adı müəllifin eyniadlı hekayəsindən götürülüb.

Hekayələri rus dilindən tatarcaya Gözəl Qıyzatullina çevirib.

On yeddi hekayənin daxil edildiyi kitabın təşəbbüskarı Tatarıstan Yazıçılar İttifaqının sədri, Xalq yazıçısı və millət vəkili Rkail Zəydulladır.

"Oyun"un annotasiyasında deyilir: "Görkəmli Azərbaycan yazıçısı Elçin Hüseynbəylinin əsərləri dünyanın bir sıra dillərinə tərcümə edilib və çoxsaylı ödüllərin sahibidir. Oxucularımıza onu yaxından tanıtmaq istədik..."